# Azərbaycan enerji üzrə müzakirə mərkəzidir

## Ənənəvi sahədə əldə edilən təcrübə "yaşıl enerji"yə ötürülür

**"Yaxın keçmişdə yalnız neft-qaz hasilatçısı kimi tanınan Azərbaycan hazırda enerji sahəsi üzrə müzakirə mərkəzinə çevrilib. Qlobal miqyasda müzakirə edilən çağırışlar artıq ölkəmizin paytaxtında elmi və siyasi müstəvidə nəzərdən keçirilir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Nicat Hacızadə deyib. O qeyd edib ki, Azərbaycan son illər bərpaolunan enerji sahəsində bir sıra addımlar atıb. "Yaşıl enerji" infrastrukturunun yaradılması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi institusional çərçivənin keyfiyyətinin artırılmasına xidmət edir. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bu sahənin inkişafında səylərin nə dərəcədə ciddi və uzunmüddətli olduğunu bir daha sübut edir. "Prezident İlham Əliyevin "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgisində rəsmi çıxışına diqqət yetirdikdə Azərbaycanın "yaşıl enerji" dövrünə keçidinin mərhələlərini müşahidə etmək mümkündür. Enerji təhlükəsizliyinin milli təhlükəsizliyimizin tərkib hissəsi olduğunu vurğulayan dövlət başçısı Azərbaycanın idxaldan asılı olanlar üçün etibarlı və uzunmüddətli tərəfdaş kimi özünü beynəlxalq miqyasda sübut etdiyini vurğulayıb", - deyə o əlavə edib.

Ekspert bildirib ki, dünyada iqlim dəyişikliklərinə qarşı qlobal mübarizənin başlandığı bir zamanda Azərbaycan gəlirlərinin əksər hissəsi enerji sektorundan gələn ölkə kimi sözügedən sahədə aparıcı rol oynayır. Birləşmiş Ərəb Əmirliklərindən bir il sonra ölkəmizin cari ilin noyabrında COP29-a evsahibliyi etməsi Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizənin qovşağına çevrildiyinin bariz nümunəsidir. Neft-qaz resursları bir sıra ölkələrə problemlər yaşatsa da, Azərbaycanın həm makroiqtisadi, həm sosial, həm də demoqrafik inkişafında əvəzedilməz rol oynayıb. Neft gəlirləri vasitəsilə akkumulyasiya olan sərvətlər bu gün Azərbaycanın davamlı inkişafının lövbərindən biridir.

N.Hacızadə vurğulayıb ki, iqlim dəyişikliklərinin qlobal dünya qarşısında yaratdığı əsas çağırışlardan biri də inflyasiyadır: "Quraqlıq və su çatışmazlığı bir sıra hallarda ərzaq təhlükəsizliyinə gətirib çıxarmaqla bərabər, tələbin artması qarşılığında qlobal istehsalın da azalmasına səbəb ola bilər. Azərbaycan iqlim dəyişiklikləri ilə mübarizəni prioritet hesab etməklə bu çağırışı qabardır, növbəti çağırışları aktual saxlamağa çalışır".

Müsahibimizin sözlərinə görə, enerji təhlükəsizliyi kimi etibarlı tərəfdaş imici formalaşdıran Azərbaycan "yaşıl enerji" sahəsində də öz missiyasını gücləndirir. Yalnız günəş və külək enerjisi olmaqla, Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaq. Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerjiyə qoyulan əsaslı investisiyalar bu potensialın səviyyəsini bir qədər də artıracaq. Nəticə etibarilə Azərbaycan ənənəvi enerji sahəsində əldə etdiyi təcrübəni "yaşıl enerji"yə ötürməklə etibarlı tərəfdaş olduğunu bir daha sübut edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 7 iyun, № 119.- S.10.